KAMRAN İMANOV

# ƏQLİ MÜLKİYYƏT VƏ İNSAN KAPİTALI

Bakı – 2018

**Kamran İmanov,**

Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri.

**Əqli mülkiyyət və insan kapitalı. Bakı, 2018**

Bu kitabça Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri Kamran İmanovun Müəllif Hüquqları Agentliyinin Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi ilə birgə 26 aprel 2012-ci il tarixində keçirilən "Əqli mülkiyyət: gələcəyə baxış" mövzusunda beynəlxalq konfransda etdiyi çıxış sözü və "Əqli mülkiyyət və insan kapitalı" adlı prezentasiya əsasında hazırlanmışdır.

**© Azərbaycan Respublikasının Müəllif Hüquqları Agentliyi, 2013, 2014, 2015, 2016, 2017**
**© Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi, 2018**

# Mündəricat


Çıxış sözü .......................................................... 5

ƏM milli qanunvericilik bazasının təsnifatı ........... 18

Biliklər dövranı və ƏM .......................................... 18

Kontentin dövranı ................................................ 19

Biliklər və biliklərə əsaslanan (innovasiyalı) inkişaf nə deməkdir? ........................................... 20

Qeyri-maddi aktivlər və ya intellektual kapital ...... 20

İntellektual kapitalın yaranma mərhələləri və strukturu ............................................................. 20

İqtisadi artım, texnoloji nailiyyətlər (TN) klassik modellərdə ............................................... 22

Davamlı iqtisadi artım: Solou modeli (biliklərin nəzərə alınması) ................................... 22

Davamlı iqtisadi artım: Romer və Lukas modeli (insan kapitalının nəzərə alınması) ...................... 23

Solou modelində biliklər (kreativlik) indeksi ......... 23

Kreativ iqtisadiyyat ............................................... 26

Azərbaycan: Müəllif Hüquqları Agentliyinin araşdırmaları ....................................................... 28

İnnovasiyalı, yoxsa innovasiyaların imitasiyalığı ilə inkişaf?............................................................ 36

## Çıxış sözü

Hörmətli dostlar, xanımlar və cənablar!

26 aprel – Beynəlxalq Əqli Mülkiyyət Günüdür.

Ümumdünya Əqli Mülkiyyət Təşkilatı (ÜƏMT) tərəfindən elan edilmiş bu mərasim günü Azərbaycanda artıq 12 ildir ki, qeyd olunur. Mötəbər bayramın bir xüsusiyyəti də ondan ibarətdir ki, o, UNESCO tərəfindən 1995-ci ildən başlayaraq və Azərbaycanda 15 ildən artıq qeyd edilən 23 aprel – Ümumdünya Kitab və Müəlliflik Hüququ Günü ilə bir həftə ərəfəsinə düşür. Hamını təbrik edərək, kreativlik və can sağlığı arzulayıram. Bu il 26 aprel – Beynəlxalq Əqli Mülkiyyət Günü «Yenilikçi (novatorların) uzaqgörən xəyalpərəstliyi» devizi altında keçirilir. Çünki hər bir böyük innovasiyanın istər bədii-mədəni, istərsə də texniki, arxasında insan tarixi dayanır, insanların arifliyi, axtarış marağı, uzaqgörənliyi və əzmkarlığı yeni üfüqlər və yollar açır. Çünki yenilikçilik və kreativlik, yaradıcılıq insanların təbii və ayrılmaz resurslarından bəhrələnir.

Azərbaycanın Respublikasının Prezidenti cənab İlham Əliyevin İslam əməkdaşlıq Təşkilatına üzv dövlətlərinin beyin mərkəzlərinin III Forumunun iştirakçılarına ünvanladığı salamlamada qeyd edildiyi kimi, «Müasir dünya sivilizasiyasının tərəqqisində insan kapitalı və intellekt yeni keyfiyyət amili kimi həlledici əhəmiyyət daşıyır. Hər bir dövləti rifah və yüksəlişə aparan yol elm və innovasiyalara əsaslanan inkişafdan keçir…». Odur ki, dövlət başçımızın məşhur «Qara qızılı insan kapitalına çevirək» şüarı kreativliyə, yaradıcılığa və yenilikçiliyə verilən ən böyük dəstəkdir.

Hörmətli dostlar!

Son 20 ildə ƏM fenomeni sürətlə inkişaf edərək, əqli fəaliyyət nəticələrinin, kreativliyin və innovasiyaçılığın stimullaşdırılmasında investisiyaların yaradıcılığa və yenilik-

çiliyə cəlb edilməsində, intellektual məhsulların yayılmasında aparıcı amilə çevrilmişdir.

Bunun başlıca səbəbi biliklərin və mədəniyyət funksiyalarının əsaslı şəkildə dəyişməsi nəticəsində əqli mülkiyyətin müxtəlif növ dəyərlərin yaradılmasında, ölkələrin iqtisadi inkişafının sürətləndirilməsində və informasiya cəmiyyətinin formalaşmasında güclü alət kimi çıxış etməsindədir.

Biliklərə əsaslanan yeni əsr iqtisadiyyatında ƏM və onda cəmlənən intellektual kapital əsas valyuta rolunda çıxış edir. Artıq ƏM aktivləri maddi aktivləri üstələyərək dünya iqtisadiyyatında yeni mərhələ yaratmışdır. «Betona və dəmirə əsaslanan iqtisadiyyat» «biliklərə əsaslanan», «rəqəmli», «kreativ» iqtisadiyyata çevrilmiş, bunların nəticəsində xüsusiyyətinə görə uzun illər kölgədə qalan ƏM fenomeni son illərdə ictimai diqqətin və təhlillərin nəzər nöqtəsinə çevrilmişdir. ƏM-in dəyişmiş iqlimi isə hazırda ÜƏMT-nın üzv-dövlətlərinin diqqət mərkəzindədir və bu iqlimin idarə edilməsi prioritet istiqamətlərdən biridir.

ƏM-in mədəniyyətin aparıcı amili olduğu halda, vacib iqtisadi alətə və iqtisadi dövriyyənin elementinə çevrilməsi, informasiya cəmiyyətində informasiya texnologiyalarının dəstəklənməsi ilə yanaşı, müasir dövrdə əqli mülkiyyət hüquqlarının (ƏMH) təminatı milli irsin, milli özünəməxsusluğun və adət-ənənələrin yaradılmasının mühüm şərtinə çevrilir. Bunu aşağıdakılar da sübut edir. Dünyada əqli mülkiyyət ilə bağlı sənaye sahələrinin həcmi 4 trl. ABŞ dollarına çatıb. Beynəlxalq Ticarət Palatasının məlumatlarına əsasən, Böyük Səkkizliyin müəlliflik hüququ və əlaqəli hüquqlarla bağlı sahələri ÜDM-in təxminən 2-11%-ni (Yaponiyada 3,4%, Rusiyada 6%, Aİ-da 6,9% və ABŞ-da 11%) təşkil edir. Bu sahələrə müəlliflik hüququ və əlaqəli hüquqlar obyektlərinin daşıyıcılarının yaradıl-

masına, istehsalına, satışına və digər qaydada yayılmasına aidiyyəti olan 9 əsas sektor daxildir.

O cümlədən, kompüter və İKT sahələri, kitablar və müxtəlif nəşrlər, media, musiqi və film istehsalatı, tətbiqi incəsənət, dizayn və s. Odur ki, onları çox zaman «kreativ» sənaye də adlandırırlar.

Göstərilən sektorlar həmçinin böyük sayda yeni iş yerləri təqdim edirlər. Beynəlxalq Ticarət Palatasının hesablamalarına görə, bu say ümumi iş yerlərinin 3%-dən 8%-ə qədərini (Aİ-da 6,5%, Rusiyada 7,3%, ABŞ-da 8,53%) təşkil edir.

Kreativ sənayenin davamlı inkişafda xüsusi əhəmiyyətini nəzərə alaraq, ÜƏMT 2012-ci ilin yanvar ayında 30 ölkələrin təcrübəsini təhlil edərək, «Müəlliflik hüququ + kreativlik = iş yerləri və iqtisadi inkişaf» adlı xüsusi araşdırma nəticələrini elan edib. Araşdırma bir neçə mühüm nəticələr çıxarmağa imkan yaradır.

Birincisi, müəllif-hüquq sənayesinin ÜDM-dəki payı və beynəlxalq mülkiyyət hüququ indeksi (hüquqi və siyasi mühit, mülkiyyətin təminatı və ƏMH-ri) arasında güclü və müsbət əlaqə müşahidə olunur və ÜDM-də müəllif-hüquq sənayesinin yüksək payı olan dövlətlər bir qayda kimi yaxşı işləyən müəllif-hüquq qanunvericiliyinə malikdirlər.

İkincisi, müəllif-hüquq sənayesinin ÜDM-dəki payı və qlobal rəqabət qabiliyyəti indeksi arasında müsbət və güclü asılılıq mövcuddur, belə ki, ölkələrdə yaradılan rəqabət mühiti yaradıcı (kreativ) istehsalat sahələri üçün katalizator funksiyasını daşıyır.

Üçüncü, kreativ sənaye sahələrinin ÜDM-dəki payı və qlobal innovasiya indeksi sıx və müsbət əlaqədədir. Bir sözlə, innovasiyalar (yenilikçilik) və yaradıcılıq müsbət şəkildə bir-birinə bağlı anlayışlardır.

Dördüncü, bəllidir ki, müəllif-hüquq sənayesi 4 hissədən ibarətdir və əsasən bilavasitə müəllif-hüquq sahəsi,

bu sahə ilə qarşılıqlı münasibətlər olan sahələri, müəllif hüququna qismən əsaslanan sahələri və ona aid köməkçi sahələri özündə birləşdirir. Araşdırma nəticəsində aydın olur ki, inkişaf etmiş ölkələrdə sırf müəllif-hüquq sahəsi daha vacib rol oynayır (bu rəqəm keçid dövrü yaşayan ölkələrlə müqayisədə 75%, inkişafda olan ölkələrlə nisbətdə isə iki dəfə artıqdır). Digər müəllif-hüquq sahələri isə inkişafda olan ölkələrdə daha yüksək çəkiyə malikdirlər.

Bəs dünyanı bir neçə il öncə bürümüş qlobal iqtisadi böhran vəziyyətində «kreativ» sənaye hansı nəticələrlə başa çatdırmışdı?

Buna cavab verən BMT-nin UNCTAD, UNDP, UNESCO, ÜƏMT və TM tərəfindən 2010-ci ilin yekunlarına əsasən açıqlanmış «Kreativ iqtisadiyyat» hesabatıdır. Kreativ sənaye digər sənaye sahələri ilə müqayisədə dünyanı bürüyən qlobal iqtisadi böhrana qarşı daha böyük davamlılıq göstərən 14% illik artımla inkişaf edib və BMT-nin tövsiyələrinə əsaslanaraq bu sahə üzv dövlətlər tərəfindən dəstəklənməli və inkişaf etdirilməlidir.

Dediklərimizi Azərbaycanda yaranan vəziyyətlə müqayisə edək, iqtisadi nailiyyətlərin ƏM-sistemindəki təsirini aydınlaşdıraq.

Azərbaycan sosial-iqtisadi planda sürətlə inkişaf edir və cənab Prezident İlham Əliyevin qeyd etdiyi kimi, ölkəmiz yaxın gələcəkdə inkişaf etmiş ölkələr sırasına daxil olacaq. Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının 20-ci ildönümünə həsr olunmuş rəsmi qəbulda dövlət başçımız demişdir: «Son 8 il ərzində Azərbaycan dünya miqyasında heç vaxt tarixdə bu günə qədər analoqu olmayan inkişaf templəri göstərir. Bunu bütün statistik göstəricilərdə də hər kəs görə bilər. Səkkiz il ərzində ölkə iqtisadiyyatı 300%, sənaye istehsalı 300% artmışdır, 950 min yeni iş yeri açılmışdır, yoxsulluq 5 də-

fə – 500% azalmışdır, büdcə xərcləri təxminən 20 dəfə artmışdır. Beləliklə, ölkənin uğurlu, dayanıqlı və sürətli inkişafı təmin edilmişdir». Ölkəmizdə uğurla keçirilən islahatlar kreativ sənayenin ÜDM-də iqtisadi payının hesablanması zərurətini yaratmışdır. Agentlik tərəfindən beynəlxalq təcrübəyə əsaslanaraq yaradılmış metodika vasitəsilə müəyyən edilmişdir ki, bu pay ÜDM-in 4,5% təşkil edir və 2004-cü illə müqayisədə 2% çox artmışdır. Yuxarıda ÜƏMT-nın araşdırmasına əsasən qeyd etdiyimiz kreativ sənayenin ÜDM-də payının artması və beynəlxalq mülkiyyət indeksi arasındakı müsbət əlaqə özünü tam təsdiqləyir. Bununla yanaşı, Azərbaycanın adam başına düşən ÜDM-in göstəricisinin artması (7-8 min ABŞ dolları) ÜDM-dəki kreativ sənayenin artması ilə uyğunluq təşkil edir. Və nəhayət, Azərbaycanın artan rəqabət qabiliyyəti indeksi (142 dövlətlər sırasında 55 yer) və ölkəmizin ÜDM-dəki kreativ sənayesinin artan payı ÜƏMT-nın təhlilində qeyd edildiyi kimi müsbət və güclü asılılıq özünü büruzə verir.

Bununla yanaşı, Agentliyin araşdırmaları göstərir ki, güclənən iqtisadiyyatın artımında yenilikçilik, innovasiya və kreativlik faktoru getdikcə yüksəlir. Belə ki, Solou davamlı iqtisadi artım modeli əsasında hesablamalar müəyyən edir ki, əgər 2004-cü ildəki beşillikdə Solou indeksi (insan kapitalı və biliklər) 7,2% olmuşdursa, 2010-cu ilə qədər ki bu əmsal 13% çox artaraq 20,6% qədər yüksəlmişdir.

Tamamilə aydındır ki, belə bir yüksəlmə cənab Prezident İlham Əliyev tərəfindən aparılan düşünülmüş siyasətin nəticəsidir. Belə ki, müasir mərhələdə yeni informasiya cəmiyyətinin inkişafından və "biliklərə əsaslanan iqtisadiyyat"dan irəli gələn tələblər nəzərə alınmaqla milli qanunvericiliyin təkmilləşdirilməsi daim diqqət mərkəzində saxlanılır. Dövlət başçısı cənab İlham Əliyevin müəy-

yən etdiyi strateji addımlara uyğun olaraq, elə şərait yaradılır ki, bu zaman yaradıcı şəxslərin cəmiyyətləri, novatorlar, biznesmenlər rəqabətə girə və maddi və qeyri-maddi nemətlər və iş yerləri yaradaraq uğur qazana bilər, vətəndaş cəmiyyətində ƏM mədəniyyəti formalaşdırılır və bunlar da vətəndaşların ƏM-in ictimai nemətlərin yaradılmasındakı rolunu görməsinə yönəldilir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin səyləri və dəstəyi nəticəsində son illər sürətlə inkişaf edən, beynəlxalq fenomenə çevrilmiş və dəyişmiş iqliminin idarə edilməsinə yeni çağırışlar yaradan ƏM sahəsində müvafiq islahatlar aparılır, qanunvericilik və normativ hüquqi baza yeniləşdirilir, sahənin idarəetmə sistemində funksiyalar təkmilləşdirilir, kadrların peşəkarlıq səviyyəsinin artırılmasına böyük diqqət yetirilir. Qısa müddətdə Azərbaycanın müasir ƏM sisteminin yaradılması, dünyadakı yeni meyllərin izlənməsi və təhlili müsbət təcrübənin tətbiq edilməsi və mənfi tendensiyalara qarşı qabaqlayıcı tədbirlərin həyata keçirilməsini ön plana çıxarmışdı. Xüsusən informasiya cəmiyyətində «biliklərə əsaslanan» «kreativ iqtisadiyyatda», rəqəmləşən müəllif-hüquq məkanında yaranmış vəziyyət diqqətlə öyrənilir və müvafiq təkliflər irəli sürülərək tənzimləyici sənədlərdə öz əksini tapır.

Məsələn, ÜƏMT-nın 200 qədər üzv-dövlətləri sırasında Azərbaycan ƏM üzrə Uzunmüddətli milli strategiyanı hazırlayan ilk dövlətlərdən biridir, bu Strategiya tanınmış beynəlxalq ekspertlər tərəfindən müsbət dəyərləndirilib, beynəlxalq simpoziumlarda müzakirə edilib. Milli strategiya əsasında hazırlanan qısamüddətli Dövlət Proqramı da qarşıda duran vəzifələrin yerinə yetirilməsi baxımından çox vacib sənədlərdəndir.

Yaxın gələcəkdə ÜƏMT tərəfindən folklor nümunələrinin və ənənəvi biliklərin qorunması haqqında Sazişlərin

qəbul edilməsini, Azərbaycan Respublikasının UNESCO-nun «Qeyri-maddi mədəni irsin qorunub saxlanması» Konvensiyasına qoşulmasını nəzərə alaraq, «Müəlliflik hüququ və əlaqəli hüquqlar» haqqında, «Azərbaycan folklor nümunələrinin hüquqi qorunması haqqında» Qanunlara dəyişikliklər və əlavələr edilmiş, «Qeyri-maddi irsin qorunması» ilə bağlı yeni qərar layihəsi Hökumətin təsdiqini gözləyir.

Dünyada rəqəmli hüquqların idarə edilməsi ilə bağlı problemlərin araşdırılması nəticəsində «Elektron ticarət haqqında» Qanuna dəyişikliklər edilməsi üçün bir sıra yeni təkliflər verilərək, «ƏMH obyektlərinin elektron ticarətinin tənzimlənməsi haqqında» Nazirlər Kabinetinin qərar layihəsi hazırlanmışdır.

Bununla yanaşı, rəqəmli hüquqların sərəncamçılığında əsərlərin və digər obyektlərin qeydiyyat sisteminin xüsusi rolunu nəzərə almaqla, əsərlərin və müəlliflərin rəqəmli qeydiyyat bazası yeniləşdirilərək, on-line, İnternet vasitəsi ilə həyata keçirilmək imkanı yaradılıb. Hazırda burada 8 mindən artıq obyekt yerləşdirilib, rəqəmli multimedia kitabxanasında isə 1000-dən artıq folklor nümunələri və mədəni irsimizə aid digər obyektlər toplanmışdır.

Azərbaycan müəllif-hüquq sahəsində geniş beynəlxalq əməkdaşlıq aparır, ÜƏMT-nın bütün sazişlərinin fəal iştirakçısıdır, rəhbər orqanlarda təmsil olunur və bir sıra təşəbbüslər irəli sürür. ÜƏMT-nın 2010-cu ildə keçirilmiş ƏM üzrə nüfuzlu mütəxəssislərin II Qlobal Simpoziumda MDB məkanında ilk dəfə olaraq 200-ə yaxın dövləti təmsil edən 300 nəfər ƏM üzrə rəhbər nümayəndələri qarşısında Azərbaycanın müəllif-hüquq sisteminin təcrübəsi və perspektivləri barədə prezentasiya edilmiş və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi altında respublikamızda bu sahədə görülən işlər barədə məlumat verilərək böyük dəstək qazanılmışdır.

Azərbaycan Avropa İttifaqı ilə də geniş əlaqələr qurub. İttifaqın 10-dan çox dövləti sahədə atılan addımları dəstəkləyərək «Tvinninq» layihəsində iştirak edir.

Layihənin nüvəsini təşkil edən, onun mərkəzi fokusunda duran artıq Hökumətin xüsusi qərarı ilə yaradılmış «Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzi»dir və «On-line» monitorinq, lisenziyalaşdırma və rəqəmli hüquqların idarəçiliyi sistemidir. Bu yeni xidmətlərin iki bənzərsiz, unikal funksiyalarının yerinə yetirilməsi üçün biznes-modellər iki ildən artıqdır ki, Müəllif Hüquqları Agentliyində hazırlanıb, bir sıra beynəlxalq forumlarda təqdim olunub və ÜƏMT rəhbərliyi və ekspertləri tərəfindən müsbət qarşılanmışdır. Layihə bir neçə funksional komponentlərdən ibarətdir, lakin Mərkəzin və Xidmətin iki funksiyası: bazara çıxarılan tərkibində ƏM olan malların holoqram-nəzarət markaları texnologiyasının yaradılması və tətbiqi, həmçinin müasir informasiya texnologiyaları əsasında rəqəmli şəbəkədə müəlliflik və əlaqəli hüquqlar obyektlərinin avtomatik lisenziyalaşdırılması, istifadəsinin monitorinqinin aparılması və kontent şəklində olan obyektlərin müasir xəzinəsinin yaradılmasıdır. Bu cür yanaşmanın səbəbləri nədən irəli gəlir?

Hörmətli dostlar!

Bir həqiqətdir ki, dünya miqyasında ƏM-in əhəmiyyətinin artması müsbət hal kimi qəbul edilərkən əks olan, dağıdıcı tendensiyalarda nəzərə alınmalıdır. Bunları qarşı, qabaqlayıcı tədbirlər görmədən bu sahənin inkişafı və gələcəyi şübhələr doğurur. Özü də bu meyllər obyektiv reallıqdan irəli gəlir, fundamental xarakter daşıyır.

Birincisi, rəqəmli çağırışlardan irəli gələn əqli nəticələrin, elm və mədəniyyət nailiyyətlərinin kontentə çevrilərək virtuallaşmasıdır. Məsələn, hər il on-line kitab bazarında satışlar ikiqat artır, Europeana – Avropa rəqəmli kitabxanasında 135 mln. yaxın rəqəmli sənədlər cəmlə-

şir, Coogle-Editions «e-Books» sistemində 3 mln. artıq rəqəmli kitablar əldə etmək olar, You-Tube hər dəqiqə 10 saatlıq rəqəmli video-yayımlar daxil olunur, proqnozlara əsasən 2040-cı ilə qədər qəzetlər elektron formata keçəcək. Rəqəmləşən kontent isə hüquqların qorunmasına əngəllər yaradır.

2011-ci ilin fevral ayında ÜƏMT-nın Ümumdünya Gömrük Təşkilatı və İnterpolun təşəbbüsü ilə Parisdə keçirilən piratçılığa və kontrafaksiyaya qarşı VI Qlobal Konqresdə deyildiyi kimi, BMT tərəfindən hazırlanmış hesabatda dünya ticarətindəki bu növ məhsullardan dəyən illik ziyan 1 mlrd. $ ötür. ÜƏMT-nın məlumatına əsasən, pirat və kontrafakt malların illik ticarət dövriyyəsi 200 mlrd. $ təşkil edir.

Beynəlxalq Ticarət Palatası (ICC) tərəfindən təqdim olunmuş sənəddə göstərilir ki, piratçılığa və kontrafaksiyaya qarşı radikal tədbirlər görülməzsə, 2015-ci ildə iqtisadi ziyan 1,7 trln.$ aşaraq hər il 2,5 mln. iş yerinin azalmasına səbəb olacaq. O ki qaldı rəqəmli şəbəkələrə, İnternetə, buradakı vəziyyət daha acınacaqlıdır. IFPI-nin (Beynəlxalq Fonoqram Assosiasiyası) məlumatına əsasən, 40 mlrd. musiqi faylları qeyri-qanuni istifadə olunur, rəqəmli şəbəkədə musiqi kontentin istifadəsi isə 95% piratçılıqla müşahidə olunur. BSA-nın (Biznes Proqram Alyansı) 2011-ci ilə dair məlumatında göstərilir ki, softver üzrə piratçılığın orta dünya göstəricisi 42%-dir, o cümlədən Qərbi Avropa üzrə 33%, Avropa İttifaqı üzrə 35%, Mərkəzi və Şərqi Avropa üzrə 64-68% təşkil edir.

Azərbaycan Respublikasında da son illər bu tendensiyalar nəzərə alınaraq, qabaqlayıcı tədbirlər çərçivəsində piratçılığa qarşı mübarizə gücləndirilib. Milli Antipirat Proqramı yeniləşdirilib, «Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılıqla mübarizə haqqında» yeni Qanunun qəbul olunması gözlənilir, müvafiq orqanların səyi nəticə-

sində bazardan pirat malların minlərlə nüsxələri çıxarılıb. Agentliyin nəzdində 960 nömrəli «Qaynar xətt» və «Hüquq məsləhətxanası» fəaliyyətdədir, Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzi» artıq işinə başlayır. Ölkə başçısının tapşırığına əsasən Azərbaycan Hökuməti ilə Microsoft şirkəti arasında imzalanmış saziş çərçivəsində bütün dövlət orqanlarında lisenziyalı softver təmin olunur.

Ümumiyyətlə, müvafiq dövlət orqanları ilə birgə aparılmış işlər nəticəsində ölkəmizdə piratçılığın səviyyəsi 2005-ci illə müqayisədə kitab nəşri sahəsində 61%-dən 40%-ə, audio-video məhsul bazarında 90%-dən 70%-ə, proqram təminatında 96%-dən 88%-ə endirilmişdir. Qeyd etməliyəm ki, Azərbaycan MDB məkanında ilk və hələlik yeganə dövlətdir ki, ÜTT-yə daxil olmadan və məlum TRİPS Sazişini imzalamadan ABŞ-ın 301-ci «piratçılığa görə narahatlıq doğuran» dövlətlərin qara siyahısından artıq bir neçə ildir ki, çıxa bilmişdir.

Bununla yanaşı, əqli mülkiyyətin dinamik inkişafı, eləcə də əqli mülkiyyət sahəsinin inkişafı üzrə Uzunmüddətli strategiyanın hazırlanması və həyata keçirilməsi bu sahədə yüksək səviyyəli kadr potensialının hazırlanmasını və mövcud kadr resurslarının ixtisasının  mütəmadi olaraq artırılmasını tələb edir. Bunu nəzərə alaraq ölkəmizdə kadr resurslarının beynəlxalq təşkilatlarda və inkişaf etmiş ölkələrdə stajkeçmə hesabına möhkəmləndirilməsi, mütəxəssislərin peşəkarlıq səviyyəsinin artırılması istiqamətlərində ardıcıl tədbirlər həyata keçirilir.

Belə ki, son illər Müəllif Hüquqları Agentliyinin 6 nəfər əməkdaşı ÜƏMT və ÜTT-nın məsafədən təhsil Proqramlarını müvəffəqiyyətlə bitirərək bütövlükdə əqli mülkiyyətin müxtəlif istiqamətləri üzrə cəmi 40-a yaxın Sertifikat almışlar. 4 nəfər müxtəlif ölkələrdə dövlət məmurları üçün təlim kurslarını  bitirmişlər. 1 nəfər ÜƏMT Akademiyasının Turin Universitetində təşkil etdiyi “Əqli mülkiyyət hü-

quqları”na dair Magistr proqramı üzrə təlim kursunda təhsil alıb, 1 nəfər isə ÜƏMT-də 6 aylıq stajirovka keçib.

Bəs gələcəyə baxışımız nədən ibarətdir?

Müasir ƏM müəlliflik hüququ və digər oxşar ƏMH obyektləri, sənaye mülkiyyəti obyektləri vasitəsi ilə dövlət siyasətinin müvafiq məqsədlərinə nail olmaq alətinə çevrilmişdir. ƏM belə bir alət kimi bir tərəfdən yaradıcılığa və yenilikçiliyə - yaradıcılıq və innovasiya məhsul və xidmətlərinə investisiyalar hesabına əlverişli şəraitin yaradılmasına xidmət edir, digər tərəfdən bazarda ədalətli rəqabətin güclənməsinə töhfə verir. Bilik sahəsi və mədəniyyətdə, iqtisadiyyat və informasiya cəmiyyəti arasında müsbət təsirli vasitə kimi ƏM sahəsinin uzunmüddətli inkişafının proqnozlaşdırılması vacib siyasi amillərdən biridir.

ƏM sisteminin gələcəyini layihələndirərkən, ƏM sahəsində milli təcrübə, yeni beynəlxalq praktika, meyllər və elmi axtarışlar diqqət mərkəzində olmalıdır. İlk növbədə ƏM obyektlərinin tam rəqəmləşdirilməsi xüsusiyyəti nəzərə alınmalıdır.

Beləliklə, gələcəyə baxışımız kreativ və innovasiyalı cəmiyyətin formalaşması ilə bağlıdır. Bu isə o deməkdir ki, “biliklərə əsaslanan iqtisadiyyat”, “rəqəmli iqtisadiyyat” və ya “internet iqtisadiyyatı” cəmiyyətin davamlı və qüdrətli inkişafında aparıcı rol oynayacaq.

ƏM-in gələcəyini planlaşdırarkən, ən vacib məsələlərdən biri də qeyri-ənənəvi ƏM sisteminin (folklor-ənənəvi mədəni nümunələr və ənənəvi biliklər) inkişafıdır. Mədəni müxtəlifliyə malik olan ölkəmiz, mədəniyyətlərarası dialoq qurulmasında mərkəzə çevrilən dövlətimiz heç bir xalqın mədəni irsinə göz dikmir və eyni zamanda iqtisadi, ərazi inkişafı amilinə çevrilən öz mədəni ənənələrini də bədxah əllərdən və özgəninkiləşdirilməkdən qorumaq əzmindədir.

Uzun illərdir ki, iqtisadçılar arasında pulun, yaxud hüquqların daha vacib olması ilə bağlı mübahisələr səngimir. Bununla belə, bu mübahisə müəyyən mənada mənasızdır, ona görə ki, hüquqlar daim məhsulların yaradılması və mübadiləsini stimullaşdırır, iqtisadi münasibətlər isə həmişə hüquq sistemini inkişaf etdirir. Bütün zamanlarda bu, belə olmuşdur. Lakin müasir iqtisadiyyat biliklər iqtisadiyyatı vektoru üzrə inkişaf edir və bu iqtisadiyyatda ƏM xüsusi status kəsb edir. Bunun bariz nümunəsi tarixin müasir meyllər mövqeyindən təhlil edilməsidir. Hələ Platon özünün İdeyalar nəzəriyyəsində ümumbəşəri dəyərlərdən birincisi kimi zövq almağı, rifah-halı, yəni pulları və hətta ədaləti, yəni hüquqları yox, məhz bilikləri hesab etmişdir. Çox sonralar digər dahi Eynşteyn bu anlayışı daha da inkişaf etdirərək bəyan etdi ki, "təxəyyül biliklərdən daha vacibdir".

ƏM məhz biliklərin təməlinə və təxəyyülün gücünə əsaslanır. Buna görə də bəşəriyyətin tarixi təxəyyülün, yəni yaradıcılıq və innovasiyaların gücünün biliklərin mövcud kütləsinə tətbiqi tarixidir. Bu həm elmdə, həm mədəniyyətdə (incəsənətdə), eləcə də insan biliklərinin bütün digər sahələrində baş vermiş, qeyri-maddi nemətlər mahiyyətcə sivilizasiyanı formalaşdırmışdır. Varlıq, sərvət və varidat da sivilizasiyanın onlardan asılı olduğu kimi sivilizasiyadan asılıdır.

Uğurlu inkişaf üçün zəmin və şəraiti də nemətlərin iki növünün-maddi və qeyri-maddi nemətlərin tarazlığı yaratmışdır. Məhz buna görə də əqli mülkiyyət yeni biliklər doğuran təxəyyülün tətbiqi ilə yaradılan biliklər sistemində ən vacib rolu oynayır. Məhz insan intellektinin təxəyyülünün yaratdığı biliklər dairəsində sivilizasiya formalaşır. Bu səbəbdən də indi əqli mülkiyyətə sivilizasiyanın intensiv inkişafına və daha çox intellektuallara zəngin və nüfuzlu olmağa imkan yaradan vacib ictimai resurs kimi baxılır.

Buradan da ölkənin strateji vəzifələri - əqli mülkiyyətin dövlət səviyyəsində institusionallaşdırılmasının dərinləşdirilməsi irəli gəlir. Əslində bu, mülkiyyətin bu növünün spesifik biliklər və hüquqlar kimi müstəqil sistemə çevrilmə prosesidir. Dövlət bu vəzifəni həll edərək, yeni oyun qaydalarını yeni iqtisadiyyatın, yaxud "biliklər iqtisadiyyatı"nın, "kreativ iqtisadiyyat"ın hüquqi əsaslarını yaradır.

Bununla əlaqədar Agentlik tərəfindən müəlliflik hüququ və digər oxşar ƏM hüquqlarının inkişafı üzrə Uzunmüddətli milli strategiya hazırlanmış, Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin səyləri nəticəsində Strategiyanın sənaye mülkiyyəti üzrə hissəsi işlənmiş və hazırda bu iki hissənin birləşdirilmə işləri yekunlaşmaqdadır. Milli strategiya dövlətimizin milli maraqlarına və iqtisadi prioritetlərinə əsaslanaraq və beynəlxalq təcrübəni nəzərə alaraq işləmə vasitələri kimi sistemli analizi və proqnozlaşdırma nəzəriyyəsini istifadə edir.

Bir daha 26 aprel Günü münasibəti ilə təbrik edir, kreativlik və sağlıq arzu edirəm.

Diqqətinizə görə təşəkkür edirəm.

# Əqli mülkiyyət və insan kapitalı

## ƏM milli qanunvericilik bazasının təsnifatı




## Biliklər dövranı və ƏM



- ƏM = ƏMH maddi "mülkiyyət" anlayışının analoqu;
- Mülkiyyətçi = ƏM hüququnun sahibi.

## Kontentin dövranı

- Kontent – rəqəmləşdirilmiş, şəbəkəyə yerləşdirilmiş, yayılmaya hazır olan və forması tərəfindən sıxışdırılmayan ƏM obyektinin məzmunudur.
- Obyektin təqdim edilmə formasının əhəmiyyətinin azalması və kontentdə onun məzmununa aksent edilməsi.

Kibermәkanda İT vasitəsilə kontentin istehsalı və emalı (yenidən işlənməsi), fraqmentasiyası və hissələri ilə əməliyyat nəticəsində yeni formaların (törəmə əsərlərin) yaradılması.



## Biliklər və biliklərə əsaslanan (innovasiyalı) inkişaf nə deməkdir?

- Elmi-texniki dairənin inkişafı (innovasiya sistemlərinin mövcudluğu, biliklərin yaranması) və tələbata uyğunluğu;
- Təlim və təhsilin inkişafı (biliklərin əldə edilməsi və keyfiyyətli istifadəsi potensialı);
- ƏM sahəsinin formalaşdırılması (ƏM çevrilmiş biliklərin qorunması və təminatı, qanunvericilik bazası);
- İdarəetmə sistemlərinin mükəmməlləşdirilməsi (bilik və informasiyanın kommunikasiyası, yayılması və emal edilməsi).

## Qeyri-maddi aktivlər və ya intellektual kapital

- Biliklər;
- Əqli mülkiyyət;
- Vərdişlər/təcrübə, innovasiya mədəniyyəti;
- İKT və İK sistemləri;
- İdarəetmə sistemləri;
- Bacarıq / qabiliyyət, personalın peşəkarlıq səviyyəsi və s.

## İntellektual kapitalın yaranma mərhələləri və strukturu

- Fərdin məlumatlarının (informasiyanın) biliklərə çevrilməsi;
- Bilik sahibinin və cəmiyyətin biliklərinin gəlirə çevrilməsi.




## İntellektual kapitalın ümumi qiymətləndirilməsi

**İntellektual kapital = Aksioner kapital – Maddi aktivlərin qiyməti**
**İK AK MA**

## İntellektual kapitalın Tobin əmsalı (q) ilə qiymətləndirilməsi

**Faydalıq dərəcəsi = Firmanın bazar qiyməti / Firmanın əvəzedilməsi qiyməti**
**q C baz C əvəz**
**q>1 – monopol rentanın mövcudluğu**

## İqtisadi artım, texnoloji nailiyyətlər (TN) klassik modellərdə




## Davamlı iqtisadi artım: Solou modeli (biliklərin nəzərə alınması)



- $Y = A \cdot F(K, L) = A \cdot K^{\alpha} \cdot L^{\beta}$; A – TN və ya biliklər əmsalı;
- Solou parçalanması: $\Delta Y / Y = \Delta A/A + \alpha \Delta K/K + \beta \Delta L/L$; $(\alpha + \beta = 1)$;
- İqtisadi artım = biliklərin artımı + kapital yığımının artımı + əmək məsrəflərinin artımı;
- “qalıq”: $\Delta A/A$ = 30% - 50% iqtisadi artım.

## Davamlı iqtisadi artım: Romer və Lukas modeli (insan kapitalının nəzərə alınması)

$Y = A \cdot F(K, L, H) = A \cdot K^{\alpha} \cdot L^{\beta} \cdot (İK)^{\lambda}$

$\Delta Y / Y = \Delta A/A + \alpha \Delta K/K + \beta \Delta L/L + \lambda \Delta H/H$




## Solou modelində biliklər (kreativlik) indeksi

$Y = A \cdot K^{\alpha} \cdot L^{\beta} \rightarrow \Delta Y / Y = \Delta A/A + \alpha \Delta K/K + \beta \Delta L/L$

(kapital, əmək, biliklər)

A – biliklər hesabına artım,

K – kapital,

L – əmək,

$\alpha = \beta = 0{,}5$.




7 illik davamlı iqtisadi artım nəticəsində Solou indeksi 13%, UDM isə 7 dəfə artıb.

*"Məqsəd qara qızılı insan kapitalına çevirməkdir".*

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti






## Hökumətin iqtisadi siyasətinə aid amillərin eksperton vasitəsi ilə dəyərləndirilməsi



## Kreativ iqtisadiyyat

### Müxtəlif ölkələrdə ƏM rolu

**1** – aşağı gəlir
**2** – orta gəlir
**3** – yüksək gəlir




**Mənbə:** *Dünya Bankı: Dünya inkişafının tendensiyaları*

Tədqiqatlara qoyulan investisiyalar və ƏM qorunması arasındakı asılılıq pozitiv və əhəmiyyətlidir.




Mənbə: *OESD*

**Kreativ iqtisadiyyat**: müəllif hüququ, əlaqəli hüquqlar və qeyri-ənənəvi ƏM obyektlərinə əsaslanan iqtisadiyyat.

- kompüter proqramları və İT-məhsulları;
- kitablar, nəşrlər, media;

- musiqi və filmlərin istehsalı, TV;
- tətbiqi incəsənət, xalq yaradıcılığı və s.

BMT-nin “Kreativ iqtisadiyyat” hesabatından (UNCTAD, PROON, UNESCO, WIPO və TM): **2011-ci il**

- ✓ 2002-2008-ci illərdə kreativ sənayenin ticarəti 2 dəfə artaraq 600 mln.$ həcmindədir.
- ✓ Qlobal iqtisadi böhran şəraitində (beynəlxalq ticarətin 12% azalması) kreativ sənaye məhsullarının satışı hər il 14% artmışdır.
- ✓ Tövsiyyələr:

- kreativ sənayenin inkişafı sosial-iqtisadi inkişafın təminatçısıdır;

- kreativ sənayenin inkişafı sosial, təhsil, mədəni, iqtisadi, ekologiya və digər istiqamətlərin nəzərə alınması deməkdir;

- kreativ sənaye mədəniyyətin, incəsənətin, kreativliyin və yenilikçiliyin, biznesin və s. kəsişməsini və inteqrasiyasını nəzərdə tutur.

# Azərbaycan: Müəllif Hüquqları Agentliyinin araşdırmaları

## Kreativ sənayenin ÜDM-dəki payı

## 2010-cu ildə Azərbaycanın ÜDM-dəki payı







*"Müasir dünya sivilizasiyasının tərəqqisində insan kapitalı və intellekt yeni keyfiyyət amili kimi həlledici əhəmiyyət daşıyır".*

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti

## ÜƏMT: “Müəlliflik hüququ + kreativlik = iş yerləri və iqtisadi inkişaf” (yanvar 2012-ci il)

Müəllif-hüquq sənayesi sahələrinin ÜDM-dəki payı



Müəllif-hüquq sənayesi sahələrinin ÜDM-dəki payı və adam başına düşən ÜDM-in həcmi arasındakı əlaqə




**Mənbə:** *Dünya Bankının inkişaf göstəriciləri*

Müəllif-hüquq sənayesi sahələrinin ÜDM-dəki payı və beynəlxalq İPR indeksi ilə əlaqə




**Mənbə:** *ÜƏMT və Mülkiyyət Hüquqları Alyansı*

Müəllif-hüquq sənayesi sahələrinin ÜDM-dəki payı və
Qlobal rəqabət qabiliyyəti indeksi ilə əlaqə




**Mənbə:** *Dünya İqtisadi Forumu*

Müəllif-hüquq sənayesi sahələrinin ÜDM-dəki payı və Qlobal innovasiya indeksi ilə əlaqə




**Mənbə:** *INSEAD eLab*

## Müəllif-hüquq sənayesi sahələrinin əsas hissəsinin ÜDM-dəki payı




## Müəllif-hüquq sənayesi sahələrinin ÜDM-də və iş yerlərinin yaradılmasında payı



## Avropa


North Sea
Baltic Sea
Black Sea
Mediterranean Sea


Sum(Pct_GDP), Sum(Pct_Employment)
0.00 %
1.00 %
2.00 %
3.00 %
4.00 %
5.00 %
6.00 %
7.00 %
8.00 %
4.54 %
4.92 %
4.27 %
4.64 %
4.73 %
5.12 %
7.42 %
4.00 %
4.40 %
5.94 %
8.76 %
5.55 %
4.19 %
6.05 %
7.30 %
5.10 %
6.84 %
2.85 %
1.90 %
BULGARIA
CROATIA
FINLAND
HUNGARY
LATVIA
NETHERLANDS
ROMANIA
RUSSIA
SLOVENIA
UKRAINE
Ölkələr

## İnnovasiyalı, yoxsa innovasiyaların imitasiyalığı ilə inkişaf?

- Müasir qlobal iqtisadiyyatdakı ƏMH qorunmasının güclənməsi tendensiyasına baxmayaraq, inkişafda olan və iqtisadi keçid dövrü yaşayan ölkələrdə bu növ sualın kökü:

a) ƏMH-nı güclü qorumaq yoxsa güclü innovasiya və kreativ məhsulların yayılmasına yönəltmək?

b) öz və ya lisenziyalı innovasiya və kreativ məhsulların yaradılmasına və yayılmasına şərait yaratmaq, yoxsa onların nüsxələrinin tətbiqinə üstünlük vermək?

<u>Misallar</u>. ABŞ: iqtisadi inkişafın innovasiya modeli.

Yaponiya XX əsrin 60-70-ci illəri – imitasiya modeli (xarici innovasiyaların tətbiqi, onların qeydiyyatının ləngiməsi və s.);

Rusiya XX əsrin 90-cı illəri – dərin tənəzzül zamanı sürətli kompüterləşmə;

- ƏMH qorunmasının səviyyəsi milli iqtisadiyyatdakı innovasiyanın və imitasiyasının nisbəti kimi.
- Digər ölkələrin müəllif-hüquq obyektlərinin nüsxələri və patentlərinin kontrafakt istifadəsi ƏMH-nın iqtisadi cəhətdən qorunmasının əlverişli olduğuna qədər mümkündür.

<u>Misal.</u> Güclü inkişafa nail olan Koreya, Tayvan, Filippin və s.

- ƏM-ə "insan kapitalı" kimi baxış: bilik sisteminin inkişafı və ƏM mədəniyyətinin formalaşdırılması.

---

Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyində hazırlanmışdır.